**AZƏRBAYCAN DEMOKRAT FIRQƏSININ BƏYANATI**

**14 İyun, 2025**

İki gündür ki, İsrail silahlı qüvvələri İranın strateji mərkəzlərini bombalayır və əlbəttə ki, İran İslam Respublikası da “bacardıgı qədər” onlara cavab verir.

ADF, siyasi partiya olaraq bütün növ müharibə və qətllərin əleyhinədir, mədəni təkamül və qurucu düşüncənin tərəfdarıdır. Lakin eyni zamanda, yaxın tariximizdən irəli gələn tarixi yaddaş və siyasi xəyanətləri də unutmamağı və daima xalqımıza xatırlatmağı da vacib hesab edirik.

Əziz həmvətənlər, İran İslam Respublikası 45 ildir ki, həm xoş günündə, həm də pis günündə “mərg bər İsrail” (İsrailə ölüm) şuarını səsləndirib. Bir gün də olsun, bir əzabkeş xalqa və bir dövlətə münasibətdə “ölüm olsun” şuarı islah olunmayıb, dəyişdirilməyib və ən yüksək səviyyəli mollalar tərəfindən şərh edilərək deyilib ki, “belə bir xalq və belə bir dövlət mövcud ola bilməz”. Əlbəttə ki, bu mollaların əlində əgər imkan olmuş olsaydı, daha nələr edə bilərdilər? Onu bilmirik, ancaq məlumdur ki, atom silahı, raketlər və çox böyük öldürücü silahlar İranın müdafiəsi üçün tədarük olunmayıb. Bu silahlar Hizbullahı, Yəməni, Suriyanı, Həması bədbəxt etdi və indi də İran xalqlarını bədbəxt etməyə yönəlib. Unutmayın ki, Rusiyaya satdıgı pilotsuz uçaqlar hər gün günahsız Ukrayna xalqının üzərinə bomba yağdırır. İran dünyanın ən böyük bir fəsad mərkəzinə çevrilib və ən mundar işlərin başında İran mollaları dururlar.

Çoxları bilir ki, İsrail yarandığı gündən bu günə qədər terrordan, bombalanmalardan, atəş təhdidindən yaxa qurtara bilməyib və bu gün də asayişi yoxdur. İsraillilər bilir ki, “Ya vəlvələdən, ya da zəlzələdən özlərini müdafiə etməlidirlər, ya da onları yaşatmayacaqlar”.

İranın “sülh analarını İrana qarşı hərbi təcavüzü pisləməyə” çagıran marginal qüvvələrə deməliyik ki, İranda bədbəxt bir həyat yaşamağa məhkum olan anaları bu işə qatmayın. Cümhuriye İslami 45 illik “mərg bər İsrail” şüarının cavabını verməlidir və

onunla birlikdə qarət olunmuş ölkənin, sahibsiz qalan millətlərin, sabaha ümüdi olmayan gənclərin də cavabını verəcək.

“Mərg bər Amrika” (Amerikaya ölüm) deyən mollalar indi ABŞ ilə danışıqlara gedir, İsraillə aralarını düzəltməyə vasitəçi axtarırlar. İranın prezidenti olmuş Əhmədinejad etiraf edir ki, dövlətin yüksək dərəcəli xüsusi xidmət məmurları İsrail cəsusudurlar. Məgər öldürülən yüksək vəzifəli məmurlar və nüvə alimlərinin yerini xüsusi xidmət orqanlarına “İranın sülh anaları” xəbər edib, yoxsa, məsul şəxslər?

Biz Azərbaycan Demokrat Firqəsi olaraq İranın heç bir siyasi və dini qurumlarına etimad etmirik və Azərbaycanı da onlara qarşı  etimadsızlığa çagırırıq. Azərbaycanın yolu “Azadlıq, Ədalət və Milli hökumət” şuarı ilə gedən yoldur. Bundan başqa verilən şüarlar bilin ki, sizi aldatmaq üçündür. Bu günlərdə mələk üzlü şeytanlara çox rast gələcəksiniz. Amerikada Pəhləvilər, Avropada mütərəqqi mollalar, ölkə daxilində iranşəhrilər və hələ çox çox fərqli sifətlər sizi inandırmağa çalışacaq ki, “xoşbəxtlik irançılıqdadır və Bəndərabbasdan keçən neft lüləsindədir”.

45 ildir görürüsünüz ki, Bəndərabbasdan axan netf ölkəni bəxtəvər etmədi, necə ki Venesuelanı, çox-çox digərlərini də bəxtəvər etmir. İranın ümümmilli birliyi də bir kələkdir, atıblar ortaya. Məgər İranda ümumi millət olub ki, ümummulli birlik də olsun?

Biz bütün xalqların hürriyyətini dəstəkləyirik, o cümlədən də Azərbaycanın hürriyyəti öncəliyimizdir. Heç bir qüvvə Azərbaycanın hürriyətinin qarşısını ala bilməz. Bəsdir məcazi ideyalara verdiyimiz qurbanlar.

Əziz firqə mənsubları və həmvətənlər,

Nəzərinizə çatdırırıq ki, ADF adından irançılıq, iranşəhrilik, pəhləvilik və islamçılıq kimi mövqeləri dəstəkləyən hər hansı bəyanat, məktub, məqalə və müraciət görərsinizsə, bilin ki, bu növbəti təxribatdır və Azərbaycan Demoktar Firqəsi heç zaman özünü bu çirkaba salmayacaqdır.

**ADF Siyasi heyyəti**